# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 46

**Bakı şəhəri** "04" iyul 2012-ci il

**"Azərbaycan Tibb Universitetinə 2012/2013-cü tədris ili üçün tələbə qəbulu planı haqqında"**

"2012/2013-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu planlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 19 iyun 2012-ci il tarixli 69 nömrəli sərəncamına əsasən Azərbaycan Tibb Universitetinə 965 tələbə qəbulu müəyyən edilmişdir. Qeyd olunanları nəzərə alaraq

## ƏMR EDİRƏM:

1. Azərbaycan Tibb Universitetinin rektoru Ə.Əmiraslanova tapşırılsın:

1.1. əmrə əlavə olunan 2012/2013-cü tədris ili üçün təsdiq olunmuş tələbə qəbulu planından irəli gələn təşkilati və metodik məsələlər həll edilsin;

1.2. 2012/2013-cü tədris ili üçün tələbə qəbulunun yekunları barədə Səhiyyə Nazirliyinə məlumat verilsin.

2. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**